# "Oğlum üçün Vətən, torpaq və bayraq eşqi hər şeydən üstün idi"

**Vətən müharibəsində illərdir işğal altında olan torpaqlarımızın azadlığını, xalqımızın şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan oğulları döyüş meydanında əllərindən gələnin ən yaxşısını edərək haqq mübarizəmizi uğurla başa vurdular. Ordumuzun böyük qələbəsilə Ermənistanın işğalçı siyasətinə son qoyuldu, tarixi ədalət bərpa edildi. Bunun üçün şəhidlik zirvəsinə yüksələnlərdən biri də Vüqar Rüstəmov oldu.**

AZƏRTAC xəbər verir ki, Vüqar Kamil oğlu Rüstəmov 1994-cü il mayın 1-də Gədəbəy rayonunun Xarxar kəndində anadan olub. 2000-2011-ci illərdə Elşən Məmmədov adına Xarxar kənd tam orta məktəbində təhsil alıb. 2012-2014-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmət keçərək Vətən qarşısında borcunu layiqincə yerinə yetirib.

Şəhidin anası Rəfiqə Rüstəmova deyir ki, Vüqar 2020-ci il sentyabrın 27-də 44 günlük Vətən müharibəsinin ilk günlərindən könüllü olaraq döyüşlərə qatılıb. Hərbçi yoldaşları ilə birgə işğalçı düşmənə qarşı igidliklə mübarizə aparıb. Xocavənd və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümayiş etdirib. Xocavənd rayonu ərazisində gedən döyüşlər zamanı şəhid olub. Şəhid noyabrın 16-da doğulub, boya-başa çatdığı Gədəbəyin Xarxar kəndində dəfn edilib.




"Türkiyədə işləyirdi, müharibənin başladığını bilən kimi Vətənə döndü. Dedi ki, döyüşlərə qatılacaq. Deyirdi ki, "Üç bacımla yanaşı, bütün Azərbaycan qadınları mənim anam, bacımdır. İstəmərəm ki, Xocalı faciəsi yenidən yaşansın". Əlbəttə ki, ürəyinin hansısa küncündə bizə yer olub, ancaq Vətən, torpaq, bayraq eşqi hər şeydən daha üstün idi. Belə zirvəyə yüksəlməsi mənim, bacılarının, qardaşının, oğlunun və həyat yoldaşının başucalığıdır", - deyə şəhid anası bildirir.

Şəhid Vüqar Rüstəmovun İdris adında bir oğlu var. "Mən onunla fəxr edirəm. Onun bir övladını böyüdürəm. Qürurlu olsam da, onun üçün çox darıxıram. Noyabrın 7-si axşam zəng etdi və dedi ki, səni Allaha, İdrisi sənə əmanət edirəm. Vüqar ölümə gedəcək, şəhid olacaq qədər Vətənini çox sevirdi", - deyə şəhidin həyat yoldaşı Tünzalə Səfərova söyləyir.

Vüqar Rüstəmov Prezident İlham Əliyevin sərəncamlarına əsasən, ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.


Azərbaycan.- 2025.- 4 noyabr (№235).- S.13.